*Əlibaba BABAYEV* *
*Arif MƏMMƏDOV* *

# QIRXÇIRAQ YAŞAYIŞ YERİNDƏ APARILAN ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA

**Açar sözlər:** Qırxçıraq, yaşayış yerləri, saxsı qablar, arxeoloji abidə
**Key words:** Girkhchirag, settlements, pottery, archaelogical
**Ключевые слова:** Гырхчыраг, поселения, керамика, археологические памятники

Bakı-Salyan şose yolunun 115 kilometrliyində yerləşən Qırxçıraq orta əsr şəhər yerlərindən biridir. Şəhər yerinin sahəsi təxminən 50 hektara yaxındır. XIX əsrdə Qırxçıraqda olmuş səyyahlar və həvəskar arxeoloqlar bu ərazidə bişmiş kərpic və daşdan hörülmüş binaların, karvansara, məscidə və minarələrin olduğunu qeyd etmişlər.

Yerli əhali buranı Qırxçıraq, ətraf ərazini isə Qaraçola adlandırır. Belə bir ad bəlkə də əbədi yanar-odlar və atəşpərəstliklə əlaqədardır. Şəhər yeri iki sahəyə ayırılır. Onun bir hissəsi kanalın arxa tərəfindən şimala doğru uzanmaqla, uçurumda sona çatır. Vaxtilə bu ərazidə bürclərin və istehkamın olduğu ehtimal edilir. Kanalın cənubundakı hissədə isə tikinti qalıqlarından ibarət təpələr mövcuddur (1, 18-20).

A.A.Bakıxanov şəhərin mövqeyi haqqında "Gülüstani-İrəm" əsərində məlumat verərək qeyd edir ki, Mahmudabad dərya kənarında – Kür çayının iki qolu arasında salınmışdır. Həmdullah Qəzvini də "Nüzhət əl Qulub" əsərində Mahmudabadın Xəzər dənizi sahilində, yerləşdiyini və Monqol sultanı Qazan xan tərəfindən inşa edildiyini yazır (6, 252). Beləliklə, ehtimal edilir ki, XIV əsrdə Qazan xan tərəfindən salınan Mahmudabad XII-XIII əsrlərdə mövcud olmuş və Qırxçıraq adlanan yaşayış yerinin xarabalıqlarında inşa edilmiş şəhərdir.

Onu da qeyd edək ki, Mahmudabad adlı şəhərin adı uzun müddət Salyanın adı ilə birgə çəkilmişdir. Bir sıra mərxəzlərdə şəhərin adının "Şirvan Mahmudabadı" kimi qeyd olunması faktları da vardır ki, bu da Şirvandan əlavə, Mahmudabad adlı digər bir şəhərin olması ehtimalını da irəli sürməyə imkan verir. Məlum olduğu kimi, XIV əsrdə Xəzər dənizinin səviyyəsi xeyli qalxmış və Mahmudabad şəhərinə daha çox yaxınlaşmışdır. Məhz buna görə də məxəzlər doğru olaraq şəhərin dəniz kənarında olduğunu qeyd edir.

* **Babayev Əlibaba** - AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi t.e.d.
* **Məmmədov Arif** - AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun böyük elmi işçisi t.ü.f.d.





Coğrafi və arxeoloji tədqiqatlar vaxtilə Kür çayının tez-tez öz yatağını dəyişdirdiyini göstərir. Kür çayı Qırxçırağın şimal istiqamətindən keçərək Kürsəngiyə yan almış, oradan isə Bəndovan burnu nahiyəsində Xəzər dənizinə tökülmüşdür. Arxeoloji qazıntılar da Bəndovanla Qırxçırağın maddi mədəniyyəti arasında müəyyən oxşarlıq və ardıcıllıqların olduğunu göstərir (10, 14-15).

Y.A.Paxamov tərəfindən XX əsrin 20-ci illərində Qırxçıraqda aparılan arxeoloji qazıntı işləri zamanı xeyli saxsı, mis əşyalar və sikkə nümunələri tapılmışdır (2, 20).

1960-cu ildən görkəmli arxeoloq Rəşid Göyüşovun rəhbərliyi ilə Qırxçıraq yaşayış yerində arxeoloji tədqiqat işləri başlanılmışdır. Qırxçırağın vaxtilə bu ərazidə mövcud olmuş Mahmudabad şəhərinin qalıqları olduğu ehtimal edilmişdir. Arxeoloji qazıntılar zamanı əsasən IX-XVI əsrlərə aid edilən boşqab və qazan tipli qablar və onların hissələri, duz qabları, qənddan tipli qablar, yerli əhali arasında "qara çıraq" adlanan çıraq qabları, Şirvan və hülaki hökmdarlarının adlarına kəsilmiş pullar və s. tapılmışdır. Əsası Qazan xan tərəfindən qoyulmuş Mahmudabad şəhərinin qalıqlarının da Salyan ərazisində yerləşdiyi qeyd edilmişdir. Arxeoloji qazıntılar zamanı, həmçinin xeyli sayda istehsal tullantıları və istehsal prosesində işlədilən alətlər, həmçinin, saxsı qabların hazırlanması üçün istifadə edilən kürəxana üzə çıxarılmışdır. Bütün bunlar isə əldə edilən dulus məmulatının əksəriyyətinin yerli istehsalın məhsulu olması haqqında fikir söyləməyə əsas vermişdir (9, 14-15).

2001-ci ildə arxeoloq Nəcəf Müseyiblinin rəhbərliyi ilə Qırxçıraqda aparılmış arxeoloji qazıntılar da uğurlu olmuşdur. Arxeoloji qazıntı işləri üç sahədə aparılmışdır. Tədqiqat işləri zamanı müəyyən edilmişdir ki, abidənin ümumi sahəsi dağıdıldığından mədəni təbəqələr qarışmışdır. Bu səbəbdən qazıntıdan aşkar edilən materiallar yerin səthindəki materiallarla eyniyyət təşkil edir. Əldə edilən dulus məmulatları əsasən təsərrüfat və məişətdə istifadə olunan qabların hissələrindən ibarət olmuşdur. Arxeoloji qazıntılar 1,5 metr dərinliyə qədər davam etdirilmişdir. Bəzi hissələrdə tikinti qalıqlarına rast gəlinmişdir. Tikintidə bişmiş kərpicdən və çay daşın-

dan istifadə olunmuşdur. Arxeoloji qazıntılar zamanı içərisində kül qalıqları olan bir neçə ədəd təndir də aşkarlanmışdır ki, onların da diametri 90 - 100 sm olmuşdur. Qırxçıraqdan aşkarlanmış saxsı məmulatının, əsasən, müxtəlif növ məişət qablarının hissələrindən ibarət olması, onların böyük əksəriyyətinin şirlənmiş, nəbati ornametlərlə naxışlandığı vurğulanmışdır. Bir ədəd saxsı boşqab parçasının içərisində isə fars əlifbası ilə yazı qeydə alınmışdır. Epiqraf M.Nemət bu yazının fars dilində yazılmış şeirin bir hissəsi olduğunu müəyyən etmişdir.

Qırxçıraqdan əldə edilən şüşə məmulatı, əsasən, müxtəlif formalı bilərziklərin qalıqlarından ibarətdir ki, onlar da əsasən qara, tünd yaşıl, açıq yaşıl rənglərdir. Onların səthi burma naxışlarla bəzədilmişdir. Külçə halında tapılmış şüşə ərintiləri bu bəzəklərin yerli olduğunu və Qırxçıraqda şüşə istehsalının yüksək səviyyədə olduğunu göstərmişdir.

Tədqiqatlar zamanı Qırxçıraqdan tapılmış 11 ədəd mis sikkə isə numizmat Q.Pirquliyevanın fikrincə, XV əsrin əvvəllərinə aid olub, Qaraqoyunlu hökmdarı Qara Yusifin dövründə zərb edilmişdir.

N.Müseyibli Qırxçıraqda apardığı arxeoloji qazıntıların nəticələrinə əsasən bu abidənin orta əsrlərdə yüksək inkişaf etdiyi qənaətinə gəlmişdir. Bu işdə şəhərin ticarət – karvan yollarının kəsişmə nöqtəsində yerləşməsinin mühüm əhəmiyyəti olmuşdur (11, 46-47).

2011-ci ildə Ələt-Masallı magistral yolunun çəkilişi ilə əlaqədar yolun Qırxçıraq ərazisindən keçən hissəsində arxeoloq Arif Məmmədovun rəhbərliyi ilə (Ekspedisyanın üzvləri Taleh Əliyev, Məmmədəmin Rəcəbov) aparılan arxeoloji tədqiqatlar şəhərin tarixi ilə bağlı bir sıra yeni faktları üzə çıxarmışdır. Arxeoloji tədqiqatlar 5x10 metr sahədə aparılmış və qazıntı işləri 2,4 metrə qədər davam etdirilmişdir. Nəticədə Qırxçıraqda iki mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir. I mədəni təbəqə eramızın III-VIII əsrlərinə aiddir və 0,9 metr qalınlığındadır. II mədəni təbəqə isə IX əsrdən başlayaraq XVII əsrə qədərki bir mərhələni əhatə edir. Üst mədəni təbəqə dağıntılara məruz qaldığından onun yuxarı qatı silinmiş və onun yalnız 1,5 metri salamat qalmışdır.

I mədəni təbəqədən, əsasən, çıraq, dopu, çaynik, qazan tipli qablardan hissələr, bir neçə ədəd naməlum metal əşyanın hissələri, çəki daşları və s., II mədəni təbəqədən isə 6 ədəd mis sikkə, boşqab, cam, vaza tipli şirli qablardan hissələr, şirli gil çıraq nümunələri, orta həcmli təsərrüfat və





məişət küplərinin qırıqları və s. aşkarlanmışdır. Belə qənaətə gəlinmişdir ki, Qırxçıraq XIII-XIV əsrlərdə inkişaf etmiş şəhər kimi formalaşanadək burada şəhər tipli yaşayış məskənui mövcud olmuş, ardıcıl inkişaf nəticəsində o şəhərə çevrilmişdir. Maddi-mədəniyyətdəki varislilik burada əhalinin etnik tərkibinin də yekcins olduğu fikrini söyləməyə əsas verir (9, 14-15).

R.Y.Bəşirovun "Qırxçıraq yaşayış yerinin saxsı nümunələri" adlı məqaləsində Qırxçıraqdan aşkarlanmış dulus məmulatları içərisində çıraq, bardaq, süddan biçimli qabların üstünlük təşkil etdiyi göstərilir. Əsasən, taxıl və s. ərzaq ehtiyatlarının saxlanılması üçün istifadə edilən iri küplər dəzgahda hazırlanmış, onların ağız hissəsinə dalğavari, bəzilərinin gövdəsinə yapma üsulu ilə qurşaqvari naxışlar vurulmuşdur. Səhənglər ağ təmiz gildən hazırlanmışdır. Onların boğaz hissələri nisbətən dar və uzun formalıdırlar. Bardaqlardan, əsasən, məişətdə istifadə edilmiş, onların vasitəsilə süfrəyə su, meyvə şirəsi, şərbət, ayran və s. paylanmışdır.

Qırxçıraqda qazanların bir neçə növünün olduğu müəyyənləşdirilmişdir ki, onların bir qismi kobud hazırlanmışdır. Qapaqlardan həm iri təsərrüfat küplərinin, qazanların həm də süfrədə istifadə olunan bəzi qabların ağzını örtmək üçün istifadə olunub.

Müəllif orta əsrlərdə Qırxçıraqda, əsasən, neftlə işləyən çıraqların tapıldığını söyləsə də, antik və ilk orta əsrlərdə olduğu kimi sonrakı dövrlərdə də Salyan bölgəsində çıraqların işıqlandırılması üçün piydən və balıq yağından istifadə edilmişdir.

Kasa tipli qablar ağ gildən hazırlanmış və onlardan, əsasən süfrədə müxtəlif içkilərdə yararlanmaq nəzərdə tutulurdu. Qırxçıraqdan aşkarlanmış şirli qablar içərisində boşqab, nimçə tipli qablar çoxluq təşkil edir. Onların gili qırmızımtıl rəngdədir, üzərlərində təbiət təsvirləri verilmişdir. Yaşıl, sarı, qəhvəyi və ağ rənglərdən daha çox istifadə olunmuşdur. Boşqab və nimçələr həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Arxeoloji qazıntıların nəticələri Qırxçıraqdan tapılmış saxsı məmulatının iki qrupa ayırmağa imkan verir: 1) Şirsiz saxsı məmulatı; 2) Şirli saxsı məmulatı.

Şirsiz saxsı məmulatın əksəriyyəti erkən orta əsrlər dövrünə aiddir. Onlar kobud və özündən əvvəlki antik dövrün qablarına nisbətən sayadırlar. Bu da erkən orta əsrlər dövründəki işğallar və yaxşı sənətkarların ölkədən aparılması, ayrı-ayrı sənət sahələrinin o işin sahibi olmayan adamlar tərəfindən davam etdirilməsi ilə bağlı idi.

Şirli saxsı qabların istehsalına isə əsasən IX əsrdən başlanılmış, XII –XIV əsrlərdə daha da artırılmışdır (13, 48-50). Qırxçıraqdan tapılan şirli qablar öz oxşarlarını Bərdə, Gəncə, Şətəl, Şabran, Şamaxı kimi iri orta əsr şəhərlərindən tapılan materiallar içərisində tapır. Q.K.Axundova Qırxçıraqdan tapılan şüşə materiallar içərisində şüşə qolbaqların çoxluq təşkil etdiyini bildirir. Onlar müxtəlif üsullarla hazırlanmışdır.

Bəzi qolbaqlar tökmə üsulu ilə hazırlandığı halda, digərlərində simmetriklik gözlənilmir. Üzəri hamarlanmış və inkrustasiya edilmiş qolbaqlar da vardır. Qırxçıraqdan tapılmış şüşə məmulatı içərisində dərman və mətbəx qabları kimi istifadə edildiyi güman edilən qırıntılar da vardır. Əldə edilən şlaklar (çıxdaşlar) şüşə məmulatının yerli şəraitdə hazırlandığı fikrini söyləməyə əsas verir. Bu cür qolbaqlar öz oxşarlarını Mingəçevir, Şamaxı, Yevlax, Goranboy, Gəncə, Bərdə, Şabran, Ərəş materialları içərisində tapır. Bu cür qolbaqların hazırlanmasına eramızın əvvəllərindən başlanılır və XIV-XVI əsrlərə qədər davam edir (12, 48-50). Qırxçıraqdan tapılmış mis sikkələr isə əsasən Şamaxıda və Təbrizdə kəsilmiş pullardır. Onlar XV əsrə aiddir və əsasən, Qaraqoyunlu hökmdarı Qara Yusifə aid edilir. 2011-ci ildə Qırxçıraqdan tapılmış sikkələri (6 ədəd) tədqiq edən numizmat Akif Quliyevin fikrincə, onlar Cəlairi, Hülaki hökmdarları, Qızıl Orda xanları, Qaraqoyunlular və Şirvanşahların adına zərb edilmiş pullardır.

2018-ci ildə Salyan-Biləsuvar arxeoloji ekspedisiyası (Əlibaba Babayev, Arif Məmmədov) Salyan rayonunun Qırxçıraq yaşayış yerində vaxtilə Rəşid Göyüşov tərəfindən arxeoloji qaqzıntılar aparılan sahənin davamında tədqiqatlar aparılmışdır. Arxeoloji tədqiqatlar zamanı təndir, ocaq yerləri, yaşayış binalarının qalıqları, IX-XV əsrə aid olan müxtəlif təyinatlı şirsiz və şirli saxsı qab nümunələrinin hissələri, həmçinin metal, şüşə qalıqları, dibək daşı və iki ədəd üzəri ərəb yazısı ilə işlənmiş daş plitələr əldə edilmişdir. Qırxçıraq şəhər yerindən tapılan maddi-mədəniyyət nümunələri içərisində saxsı məmulatları çoxluq təşkil edir. Şirsiz saxsı qabları içərisində səhəng tipli maye qabının oturacaq hissəsi, küpə tipli saxsı qabın oturacağı, saxsı çıraqlar, təsərrüfat küpünün ağız hissəsi, kasa tipli qabın oturacaq hissəsi və digər nümunələr aşkar olunmuşdur.

Aşkar edilən saxsı qab nümunələri içərisində daxili səthi yaşımtıl rəngdə saya şirlənmiş kasa tipli qablar, boşqablar şirli olur qablar və digər müxtəlif təyinatlı şirli qabların hissələri aşkar edilmişdir.





Yaşayış yerindən yerli istehsalla yanaşı gətirilmə dulusçuluq məmulatları da aşkarlanmışdır. Nümunələr şirsiz, şirli, fayans qablardan, onların fraqmentlərindən, əmək alətlərindən, qabların bişirilməsində istifadə olunan gil oturacaqlar və çubuqlardan ibarətdir. Yaşayış yerindən əməl alətlərinin tapılması sənətkarlıq sahələrinin davamlı fəaliyyət göstərdiyini bildirir.

Qırxçıraqdan bişmiş və qırmızı rəngli, kvadrat ölçülü kərpiclər və kaşı parçalar da tapılmışdır. Kərpiçlərin ölçüləri orta əsr Bərdə, Gəncə, Qəbələ və Örənqaladan aşkar edilmiş kərpiclərin ölçülərinə uyğundur. Zərif kaşı parçaları həm incəsənət, həm də inşaat texnikası baxımından böyük maraq doğurur (3, 65).

Maddi mədəniyyət nümunələri içərisində qabların naxışlanmasında istifadə olunan alətlər və möhürlər aşkarlanmışdır. Qəlib möhürlərin birinin səthində bitki təsvirləri və düz xətt boyunca üç kiçik ulduz şəkillər, digərinin üzərində şahmat qaydası üzrə cərgələr düzülmüşdür.

Yaşayış yerindən aşkar edilən keramika nümunələri XII-XIV əsrlərə aid olub, Azərbaycanın digər həmdövr abidələrindən də məlumdur.

Qırxçıraqda aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi-mədəniyyət qalıqları bütün orta əsrlər boyu bölgə sakinlərinin Yaxın və Uzaq Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələri öyrənməyə imkan yaratmaqla yanaşı yerli istehsalın səviyyəsi haqqında da aydın təsəvvür yaradır.

Yerli əhali arasında Qırxçıraq kimi tanınan və orta əsr mənbələrində Mahmudabad adlanan Qırxçırağın adı Bərdə, Gəncə, Şamaxı, Şətəl (Goranboy), Şabran, Beyləqan, Dərbənd, Təbriz, Tiflis kimi iri şəhərlərlə birlikdə çəkilir. Onun Hülaki hökmdarı Qazan xan (Mahmud xan) tərəfindən salındığı bildirilir. Qazan xanın vəziri və saray tarixçisi Fəzlullah Rəşidəddinin məlumatına görə, hökmdar qışı Aranda keçirmək məqsədilə hicri 697-ci il məhərrəm ayının 20-də (miladi 7 noyabr 1297-ci il) Təbrizdən yoa düşür və Salyandan keçərək Şirvana gəlir və yeni bir şəhərin, Mahmudabaın əsaını qoyur.

XIV əsr müəllifi Həmdullah Qəzvini Mahmudabad şəhərinin Qazan xan tərəfindən Xəzər dənizinin sahilindəki Qəmbəri (Qəmərli – A.M, Ə.B.) dsüzündən salındığını, onun beşinci iqlimdə yerləşdiyini bildirir.

A.Hüseynzadə isə Mahmudabad şəhərinin yerli əyanları öz tərəfinə çəkmək üçün İslam dinini qəbul edərək özünün Mahmud adlandıran Qazan xan tərəfindən Kür çayının iki qolu arasında dəniz sahilində saləndığını

qeyd edir. Bu şəhərə Şil də deyilirdi. Hətta qalıqları Suqovuşan ərazisində olan Hülaki xan tərəfindən dağıdılmış Güştəsfi şəhərinin əhalisi də Qazan xan tərəfindən Mahmudabada köçürülmüşdü.

Aparılan arxeoloji qazıntıların nəticələri Hülakilər dövründə Mahmudabad tacirlərinin Qızıl Orda, Çin və Hindistanla iqtisadi-mədəni əlaqələr saxladıqlarını göstərir. Təsadüfi deyildir ki, əl-Öməri orta əsrlərdə Dərbənddən, Qızıl Orda ərazisindən keçən ticarət – karvan yolunun Çinə qədər uzanması haqqında məlumat verir. Arxeoloji qazıntılar zamanı vaxtilə Çində istehsal olunmuş saxsı qabların, 1360-cı ildə Cuci hökmdarlarının adına kəsilmiş sikkələrin Qırxçıraqdan tapılması Mahmudabadın Uzaq Şərq ölkələri ilə əlaqələrdən xəbər verir.

Mənbələrin verdikləri məlumatlara görə, orta əsrlərdə Çindən, Hindistandan, Mərkəzi Asiyadan karvan yolu ilə gətirilən məhsullar Xəzər dənizi vasitəsilə Cənubi Qafqaza, oradan isə Kür və Rion çayları vasitəsilə Qara dəniz sahillərinə və Bizansa göndərilirdi.

XIV əsrdə Mahmudabad ipəyi həm də Avropa ölkələrində şöhrət qazanmışdı. Bu da Mahmudabadın iri ticarət və liman şəhərinə çevrilməsinə səbəb olmuşdu. Avropalıların tərtib etdikləri dəniz yolları xəritəsində də Mahmudabadda (Mahmudağa) limanın olduğu göstərilir. Təsadüfi deyilir ki, VII əsr mənbələrində də Kür ətrafında, çox ehtimal ki, indiki Salyan ərazisində neft və duz çıxarılması haqqında qeydlər var.

XVI əsrdə Səfəvilərlə Moskva knyazı III İvan arasında imzalanmış ticarət müqaviləsinə əsasən Mahmudabaddan qonşu ölkəyə müxtəlif növ ipək və pambıq parçalar, xam ipək, heybə, məfrəş, xalça-palaz, xurcun, zinət əşyaları, düyü, duz və s. ixrac olunur, əvəzində bal, mum, xəz dərilər, kətan parçalar, silahlar və s. gətirilirdi.

1565-ci ildə Səfəvi hökmdarı Şah I Təhmasibin sənətkar və tacirlərdən alınan tamğa vergisini ləğv etməsilə Mahmudabaddan Təbriz, Gəncə, Şamaxı kimi şəhərlərə yüksək keyfiyyətli kürü ixracı artır. Bu dövrdə Azərbaycana gəlmiş venesiyalı Minadon Mahmudabad ipəyinin gözəllik və keyfiyyətini, 1562-ci ildə ölkəmizdə olmuş Moskva şirkətinin rəhbəri Antoni Cenkinson isə ipək istehsalı və emalı üzrə ixtisaslaşmış emalatxanaların mövcudluğu haqqında məlumat vermişdilər.

Əmir Teymur 1393-cü ildə Azərbaycana hücumu zamanı qışı Mahmudabadda keçirmişdi. Qızıl Orda xanı Toxtamış xanın Dərbənddən Şirvana keçməsini eşidərək 1395-ci ilin (hicri 797) yazında Mahmudabaddan Dərbəndə doğru hərəkət etmiş, Terek çayı sahilindəki döyüşdə onu məğlub etmişdi.





Mahmudabad dəfələrlə Şirvan hakimlərinin sığınacaq yerləri olmuşdu. Mixondun məlumatına görə, 1434-cü ildə Qaraqoyunlu Qara İsgəndərin Şirvana hücumu zamanı Şirvanşah I Xəlillulah da Mahmudabad qalasında müdafiə olunurdu.

1468-ci ildə Ağqoyunlu hökmdarı Uzun Həsən və onun müttəfqiləri Şirvanşah Fərrux Yasar, eləcə də Ərdəbil hakimi Şeyx Heydərlə Teymuri Əbu Səid arasındakı döyüş də Salyan ərazisində, Mahmudabad yaxınlığında baş vermişdi. Teymurilər məğlub olmuş, Əbu Səid isə edam olunmuşdu.

1488-ci ildə Şeyx Heydər atası Şeyx Cüneydin intiqamını almaq üçün Şirvana hücum edərkən ağqoyunluların Fərrux Yasara kömək xəbərini eşidərək Mahmudabada çəkilir, orada qüvvə toplayaraq Dərbəndə hücum edir, lakin Şahdağı ətəyindəki döyüşdə öldürülür.

1500-cü ildə I Şah İsmayıl da Şirvana hücum edərkən qışı Mahmudabadda keçirmişdi.

1538-ci ildə I Şah Təhmasib Şirvanı tutarkən Mahmudabadı Əmir Qazı xan Təkəliyə bağışlayır. 1555-ci ildə isə Mahmudabadın hakiminin Şərəfnamə əsərinin müəllifi Şərəf xan Bidlisinin olduğu göstərilir.

1578-ci ildəki Səfəvi – Osmanlı müharibələri zamanı Mahmudabad gah bu, gah da digər tərəfin əlinə keçərək dağıntılara məruz qalır.

Osmanlılara qarşı hərbi əməliyyatlarda üstünlük qazanmaq istəyən I Şah Abbasın yeritdiyi "yandırılmış torpaq" taktikası nəticəsində isə Mahmudabad tamamilə dağılır və sonradan burada vergi siyahılarında 40 evin adı qeyd olunduğu üçün yerli əhali arasında Qırxçıraq adı ilə tanınır.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Məmmədov R.Kvaçidze V. Qədim Guştəsfi "Elm və həyat" jurnalı 1981, № 12, səh..18-20.
2. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик и краев Кавказа, вып VI Издателство А.Н. Азерб. ССР Баку 1954, с. 20
3. Nuriyev A.B., Babayev Ə.H. Bərdə şəhərinin tarixi-arxeoloji oçerki (antik və orta əsrlər) Bakı. 2001, səh. 65

4. Хемдуллах Казвини, Нусхат ал-Кулуб. Перев. с английского. З.М.Буниятова персидского И.П.Петрутевского Баку. Элм, 1983 ,с. 64
5. Бакыханов А.А. Гюлистани Ирçм. Баку, Элм 1991, с. 252
6. Məmmədov R.S. Kvaçidze. Qırxçıraq abidəsi Elm və həyat jurnalı. Bakı 1974, № 4, səh 26-27.
7. Məmmədov A.M. Salyan (tarixi arxeologiyası və memarlığı Elmi praktiki konfrans Bakı, 2012. Səh. 108-110.
8. Arif Məmmədov Salyan (Dəmir dövründən – orta əsrlərədək) (tarixi-arxeoloq icmal) Bakı, Elm 2016. Səh. 14-15
9. Abbasova E.İ. Cənub-şərqi Şirvanın orta əsr yaşayış yerləri (IX-XVII əsrlər) tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı 2016. səh. 14-15.
10. Müseyibli N.Ə. Qırxçıraqda arxoloji tədqiqatlar ( 2000-2001-ci illərdə aparılan arxeoloji tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya (çöl tədqiqatlar və nəzəri problemləri) tezislər // Bakı 2002, səh. 46-47
11. Ахундова Г.К. Стеклянные. Браслеты из Гырхчыраг (2000-2001-ci illərdə aparılan arxeoloji aparılan arxeoloji tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya), (çöl tədqiqatları və nəzəri problemləri) tezislər // Bakı 2002. Səh. 48-50.
12. Bəşirov R.Y. Qırxçıraq "yaşayış yerinin saxsı nümunələri" 2000-2001-ci illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya, Tezislər, Bakı, Elm 2002, səh 48-50.

## ABOUT ARCHAEOLOGICAL RESEARCHES INGIRKHCHIRAG SETTLEMENT SUMMARY

Girkhchirag was established by Gazan Mahmud Khan inIlkhanid period. Mahmudabad city was one of the important settlements of Azerbaijan in classic medieval period. Archaeological excavations were led by Rashid Goyushov in 1960, by Najaf Museyibli in 2001, by Arif Mammadov in 2011, by Alibaba Babayev and Arif Mammadov in 2018 at Girkhchirag settlement.

## ОБ АРХЕОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ В ПОСЕЛЕНИЕ ГЫРХЧЫРАГ РЕЗЮМЕ

Гырхчыраг был основан Газаном Махмуд ханом в период Ильханидов. Город Махмудабад был одним из важных поселений Азербайджана в эпоху классического средневековья. Археологические раскопки в поселение Гырхчыраг вели Рашид Геюшев в 1960 году, Наджаф Мусейибли в 2001 году, Ариф Мамедов в 2011 году, Алибаба Бабаев и Ариф Мамедов в 2018 году.